# İnklüziv təhsil

| Nədir? | Nə deyil? |
|---|---|
| Əlilliyi olan uşaqların yaşadıqları icmada ümumtəhsil məktəblərində digərləri ilə bərabərhüquqlu şəkildə təhsilə cəlb edilməsi | Əlilliyi olan uşaqların xüsusi təhsil siniflərində seqreqasiyası (qruplaşdırılması) |
| Təhsil sisteminin əlilliyi/xüsusi təhsil ehtiyacı olan şəxslərin fərdi tələblərinə uyğunlaşdırılması | Əlilliyi olan insanların ümumi təhsil sisteminə uyğunlaşması |

# Azərbaycanda inklüziv təhsil təşəbbüsü

Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi tərəfindən həyata keçirilir.

**Layihə çərçivəsində həyata keçiriləcək fəaliyyətlər aşağıdakılardır:**

- İnklüziv təhsil üzrə təlim modullarının hazırlanması, ibtidai sinif müəllimliyi ixtisasının tədris proqramına bu modulların inteqrasiyası və müvafiq tədris vəsaitlərinin hazırlanması;
- Hazırlanmış təlim modulları üzrə Bakı şəhəri, Quba, Şəki, Ağcabədi, Cəlilabad və Şamaxı rayonlarında ibtidai sinif müəllimləri və məktəb rəhbərlərinin, eləcə də Azərbaycan Pedaqoji Universitetinin müəllim və tələbələrinin təlimləndirilməsi;
- Yaradılacaq inklüziv təhsil mərkəzləri vasitəsilə yerli kadr potensialının artırılması;
- Qanunvericilik bazasının təhlili və müvafiq qanunvericilik aktlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması üçün təkliflərin hazırlanması;
- İctimaiyyətin maarifləndirilməsi məqsədilə müxtəlif tədbir və fəaliyyətlərin həyata keçirilməsi.


**HEYDƏR ƏLİYEV FONDUNUN “REGİONAL İNKİŞAF” İCTİMAİ BİRLİYİ**

Ünvan: Bakı şəhəri, Mikayıl Müşfiq küçəsi., 2H
Tel: Tel: +99412 505 01 50
Email: Email: info@ie-rt.az
Veb: www.inkluzivtehsil.az

@inkluzivtehsilAzerbaycan
@inkluzivtehsil



Bu sənəd Avropa Birliyinin maliyyə dəstəyi ilə hazırlanmışdır. Sənədin məzmununa görə RİİB məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa Birliyinin rəsmi mövqeyi kimi qəbul edilə bilməz.


**TƏRƏFDAŞ TƏŞKİLATLAR**

İCTİMAİ BİRLİK
“Yerli İdarəetməyə Yardım” İctimai Birliyi
www.lga.az

“Sosial Hüquqların Araşdırılması” İctimai Birliyi (SHAIB)
www.rsr.az


Dizayn və tərtibat
Ağart Creative



Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

HEYDƏR ƏLİYEV FONDU

RİİB Regional İnkişaf İctimai Birliyi
Bu layihə RİİB tərəfindən icra olunur


# “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi

Layihənin müddəti
**May 2018 – Sentyabr 2020**

# İNKLÜZİV TƏHSİL HAMI ÜÇÜN TƏHSİLDİR!

**İNKLÜZİV TƏHSİL ƏLİLLİYİ OLAN UŞAQLARIN, ELƏCƏ DƏ DİGƏR SƏBƏBLƏRDƏN TƏHSİLDƏN MƏHRUM OLAN BÜTÜN UŞAQLARIN ÖZ HƏMYAŞIDLARI İLƏ BİRGƏ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ EYNİ SİNİFDƏ TƏHSİLƏ CƏLB EDİLMƏSİDİR.**

İnklüziv təhsilin məqsədi yalnız əlilliyi olan uşaqların ümumi təhsil müəssisələrinə cəlb edilməsindən ibarət deyildir. Əlilliyi olan uşaqlar da daxil olmaqla bütün təhsilalanların təhsil prosesində fəal iştirakı, öyrənməsi və hərtərəfli inkişafının təmin edilməsi inklüziv təhsil yanaşmasının özülünü təşkil edir.

> Əlilliyi olan şəxslərə müxtəlif maneələrlə qarşılaşdığı zaman digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxslər aiddir.
> Maddə 1, BTM-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında konvensiyası



## İnklüziv təhsil niyə önəmlidir?

### İnklüziv təhsil bir hüquqdur!

İnklüziv təhsil hər şeydən əvvəl hamı üçün bərabər və keyfiyyətli təhsil hüququnu təsbit edən beynəlxalq sənədlərin tələbidir. Belə ki, BMT-nin *“Uşaqların hüquqları haqqında” Konvensiyasının 28-ci maddəsində* təhsilin bərabər imkanlar şəraitində hamıya açıq olması ideyası vurğulanır. *BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasının 23-cü maddəsində* isə birbaşa olaraq sağlamlıq imkanları məhdud olan uşaqların inklüziv şəraitdə təhsil alması təsbit olunur.

### İnklüziv təhsil sosial birliyi stimullaşdırır!

İnklüziv təhsil şəraitində təhsil alan sağlamlıq imkanları məhdud olan uşaqlar öz həmyaşıdlarını təqlid etməklə yeni bacarıqlar, həmçinin sosial və həyati bacarıqlara yiyələnməklə, cəmiyyətə daha yaxşı inteqrasiya olurlar. Eyni zamanda, tipik inkişaf edən uşaqlar tərəfindən də fərqliliyə pozitiv münasibət formalaşır. Bu da bütövlükdə cəmiyyətdə sağlamlıq imkanları məhdud insanlara münasibətdə diskriminasiya və sosial stiqmaların aradan qaldırılmasına və nəticədə fərqliliyə açıq, tolerant və inklüziv cəmiyyətin bərqərar olmasına gətirib çıxarır.





### İnklüziv təhsil iqtisadi cəhətdən səmərəlidir!

İnklüziv təhsil vasitəsilə cəmiyyətə uğurlu adaptasiya prosesi keçən sağlamlıq imkanları məhdud olan insanların əmək məşğulluğunun artması perspektivi daha böyükdür. Belə olan halda müavinətlərdən asılılıq azalır, rifah halı yüksəlir və iqtisadi inkişafa töhfə verilmiş olur.